

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 240 (21.650)

*16 dekabr 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu və uğurla inkişaf etdiyi vurğulanıb, əlaqələrimizin bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 15 dekabr tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da vardır.

**Babayev Natiq Səfərəli oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə,

**Vəliyev Razim İsbəndiyar oğlu – daxili xidmət mayoru**
**Seyidov Mirtaleh Vilayət oğlu – daxili xidmət kapitanı**

"Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilmişlər.

## Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında musiqi təhsili sahəsində səmərəli fəaliyyətlərinə görə:

Əliyev Elşən Adil oğluna – **"Əməkdar müəllim"** fəxri adı;

İbrahimova Səbinə Pənah qızına

Seyidova Zülfiyyə Yusif qızına

Yusubova Sevda Nəsib qızına – **"Əməkdar mədəniyyət işçisi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 dekabr 2016-cı il*

## Heydər Əliyev siyasi xəttinin bəhrəsi: MÜASİR NAXÇIVAN

Məşhur ingilis filosofu Herbert Spenser yazırdı ki, *xalqın azad olmayınca, sən də özünü azad saya bilməzsən, xalqın xoşbəxt olmayınca, sən də özünü xoşbəxt saya bilməzsən.* 1995-ci il dekabrın 16-da keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasından sonra əməl və əqidə birliyi muxtar respublika əhalisini sabitlik və əmin-amanlığa qovuşdurdu, hər sahədə davamlı yüksəlişə nail olundu. ***"Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm"***, – deyən muxtar respublika rəhbəri ulu öndərin xəttinə sədaqətin gücünü yaradıcı dühası ilə reallığa çevirdi.

Naxçıvanı düşdüyü ağır sosial-iqtisadi durumdan çıxarmaq üçün real fəaliyyətə ehtiyac var idi. İdeoloji yol məlum idi – ulu öndər Heydər Əliyev tərəfindən təməl prinsipləri müəyyənləşdirilmiş Azərbaycançılıq yolu. Əvvəlcə muxtar respublikanı ağır vəziyyətdən qurtarmaq, sonra isə gələcək inkişafını təmin etmək lazım idi. O dövrdə vəziyyət birmənalı deyildi. Mavi yanacağın, elektrik enerjisinin olmaması, park və xiyabanlarda ağacların kəsilməsi, üstəlik mağazalarda tüğyan edən ərzaq qıtlığı əhalini çox çətinə salmışdı, çörək növbələri gündəlik həyat tərzinə çevrilmişdi. Dağıdılan infrastruktur əhalinin iş imkanlarını, demək olar ki, minimuma endirmişdi.

Məhz belə bir dövrdə Naxçıvan davamlı inkişaf yoluna qədəm qoydu. Bu diyarın hər bir guşəsində tikinti-quruculuq işləri geniş vüsət aldı, şəhərlərin siması dəyişdi, yeni inzibati obyektlər, məktəblər, xəstəxanalar tikildi, kənd mərkəzləri istifadəyə verildi, yollar, körpülər salındı. Ötən müddətdə yeni açılan iş yerlərinin sayında dəfələrlə artım müşahidə olundu, əhalinin sosial rifah halı yaxşılaşdı. Əhalinin elektrik, qaz və su təminatında böyük dəyişikliklər əldə edildi. Naxçıvan elektrik enerjisini idxal edən bir diyardan ixrac edən muxtar respublikaya çevrildi. Zəruri infrastrukturun yaradılmasından sonra sənayenin, kənd təsərrüfatının inkişafı üçün bütün imkanlar səfərbər olundu, aqrar və sənaye sektorunun əlaqəli fəaliyyəti təmin edildi, muxtar respublikada ixracyönümlü məhsulların istehsalına başlandı. Əgər əvvəllər Naxçıvan yalnız bir neçə məhsulu – "Sirab"ı, "Badamlı"sı, daş duzu ilə tanınırdısa, indi Naxçıvanda əsas ərzaq məhsullarına tələbat yerli istehsal hesabına ödənilir, dünyanın müxtəlif ölkələrində keçirilən sərgilərdə Naxçıvanda istehsal olunan yüzlərlə çeşiddə məhsul öz keyfiyyətinə, rəqabətədavamlığına görə ən böyük mükafatlara layiq görülür. Təbii ki, bütün bunlar muxtar respublikanın iqtisadi imkanlarının artmasına və ixrac potensialının yüksəlməsinə öz təsirini göstərir. Nəticə isə göz önündədir. Bir vaxt ərzaqla, enerji ilə sınağa çəkilən Naxçıvanda bu gün ərzaq və enerji təhlükəsizliyi tam təmin olunub.



Əgər əvvəllər Naxçıvanda əkilən ərazilər məhdud ölçüdə idisə, indi bu ərazilər muxtar respublikanın böyük bir hissəsini əhatə edir. Hər ötən il yeni sahələrin əkin dövriyyəsinə qatılması, qəbul edilən dövlət proqramlarının uğurlu icrası torpaqların hər qarışının əkilməsinə imkan yaradıb. Suvarılan torpaqların sahəsi dəfələrlə genişlənib, texnika ilə təminat ən yüksək səviyyəyə çatıb. İndi muxtar respublikada yaradılan soyuducu anbarlardan qışın soyuqlu-şaxtalı çağında bazara yerli kənd təsərrüfatı məhsulları çıxarılır. İndi Naxçıvanda qurulan istixanalarda ekoloji cəhətdən təmiz tərəvəzlər yetişdirilir və hər bir muxtar respublika sakini istənilən fəsildə bu tərəvəzləri almaq imkanına malikdir.

Naxçıvan bu gün yaşıllıqlar, gülkarlıqlar diyarıdır. Bunu muxtar respublikaya gələn hər bir qonaq birinci növbədə qeyd edir. Ona görə ki, Naxçıvanda genişmiqyaslı yaşıllaşdırma proqramı həyata keçirilir. Ağacları baltalanan park və xiyabanlar indi başqa büsatdadır. İndi elə bir şəhər, elə bir kənd tapmaq olmaz ki, orada yaşıllıqlar, gülkarlıqlar, meyvə bağları salınmasın. Təbiətin ağciyərləri sayılan meşələrimiz də diqqətdən kənarda qalmayıb. Bahar aylarında yol kənarları, bağ-bağçalar daha gözəl, daha füsunkar görünür. Bütün bu yaşıllıqlar torpağını sevən naxçıvanlıların zəhmətinin bəhrəsidir. Keçirilən ümumxalq iməciliklərinin nəticəsidir. Əvvəllər Naxçıvan əhalisi təbiətə tabe idisə, aylarla suvarma suyuna möhtac qalırdısa, indi təbiət özü insanların ixtiyarındadır. Nahaq yerə demirlər ki, vaxtilə torpaqları cadar-cadar olmuş Naxçıvan indi canlı təbiət abidəsi, təbiət muzeyidir. Fərq orasındadır ki, bunlar insan əli ilə yaradılıb, insan zəkasının məhsuludur.

Muxtar respublikanın, demək olar ki, bütün kəndlərində müasir infrastruktur var. Şəhər məktəblərindən heç nə ilə fərqlənməyən məktəblər, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları, musiqi məktəbləri istifadəyə verilib, muxtar respublikanın hansı bölgəsində yaşamasından asılı olmayaraq gələcəyimiz olan gənclərin yaxşı təhsil alması, istedadlarının üzə çıxarılması üçün şərait yaradılıb. Əvvəllər ucqar dağ kəndində yaşayan bir uşağın öz kəndində müasir məktəbdə təhsil alması xəyal idisə, indi bu, günümüzün reallığıdır. Bütün bunlar isə gələcəyimizə göstərilən yüksək qayğıdan xəbər verir.

İllər öncə şəraiti olmayan xəstəxanalar insanlara sağlamlıq yox, xəstəlik verirdi. Lakin bu gün muxtar respublikada ucqar dağ kəndlərində belə səhiyyə obyektlərinin inşa olunması, bu obyektlərin müasir avadanlıqlarla, yüksək tibbi biliyə sahib kadrlarla təmin edilməsi, şəhər və rayon mərkəzlərində

*Ardı 2-ci səhifədə*

müasir xəstəxanaların, şəfa ocaqlarının istifadəyə verilməsi səhiyyə sisteminə qarşı inamsızlıq buzunu əritdi. Əgər əvvəllər insanlar kiçik bir diaqnostik müayinə üçün başqa ölkələrə üz tuturdularsa, indi Naxçıvanda ən mürəkkəb cərrahi əməliyyatlar aparılır, insanların sağlamlığı etibarlı şəkildə qorunur, başqa ölkələrdən muxtar respublikanın xəstəxanalarına müraciət edənlərin sayı çoxalır.

Bu gün Naxçıvan elm, mədəniyyət və incəsənət tədbirlərinin, beynəlxalq elmi konfrans və simpoziumların keçirildiyi mərkəzə çevrilib. Hər il bu qədim diyar dünyanın müxtəlif ölkələrindən gəlmiş elm adamlarına qapılarını açır, Naxçıvanın tarixi yenidən vərəqlənir, öyrənilir, dünya ictimaiyyətinə çatdırılır. Əvvəllər muxtar respublikada köhnə infrastruktura malik bir ali təhsil ocağı fəaliyyət göstərirdisə, indi Naxçıvan şəhərində ən müasir texnologiyalarla təchiz olunmuş üç ali təhsil ocağı vardır. Bu təhsil ocaqlarında dünyanın dörd bir yanından gələn tələbələr təhsil alır, müasir orta ixtisas və peşə məktəbləri fəaliyyət göstərir.

Naxçıvanda bu gün milli dəyərlərə xüsusi önəm verilir. Bu torpaq keçmişdə olduğu kimi, bu gün də yaradıcı insanların sənət məbədidir. Naxçıvanda milli dəyərlərimizin, adət-ənənələrimizin qorunub yaşadılmasına qayğı ilbəil artır, xalq sənətkarlığı sahələri inkişaf etdirilir, el sənətkarlarının əsərlərindən ibarət sərgilər təşkil olunur.

Muxtar respublikada həyata keçirilən uğurlu siyasət bu diyarı həm də ölkəmizin aparıcı idman mərkəzlərindən birinə çevirib. Siyasi və iqtisadi cəhətdən güclənən Naxçıvanda keçirilən idman tədbirləri öz səviyyəsi və mötəbərliyinə görə nümunə gücündədir. Təbii ki, bu nailiyyətin əldə olunmasında muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərinin də mühüm rolu vardır. Görülən işlərin nəticəsidir ki, muxtar respublika gəncliyi idmanla mütəmadi məşğul olaraq sağlam nəsil kimi formalaşır. Əldə edilən nəticələr, yaradılan infrastruktur, idmançılarımızın qazandıqları mükafatlar Naxçıvanın regionun idman mərkəzlərindən birinə çevrildiyini bir daha təsdiq edir.

Naxçıvan Muxtar Respublikası etibarlı müdafiə olunur. Xalq-ordu birliyi vardır. Əsgərlərin nümunəvi xidmət keçməsi üçün hər cür şərait yaradılıb, nizam-intizam ən yüksək səviyyəyə çatdırılıb. Əvvəllər, necə deyərlər, qorxusuz-hürküsüz Naxçıvanın sərhəd kəndlərini aramsız atəşə tutan düşmən bu gün susmağa məcburdur. Çünki onun qarşısında məğrur Azərbaycan əsgəri dayanıb. Müasir hərbi hissələr, güclü maddi-texniki təminat, hərbi qulluqçuların döyüş qabiliyyətinin mütəmadi artırılması ordu quruculuğu sahəsində görülən ən mühüm tədbirlərdir. Naxçıvan dağlarının zirvəsində əldə silah xidmət çəkən Azərbaycan əsgəri bu dağlar qədər əzəmətli, vüqarlı və yenilməzdir.

Sabitlik və inkişaf müasir Naxçıvanın əsas göstəricisidir. Burada cinayət hadisələri, demək olar ki, qeydə alınmır. İnsanlar rahat və firavan yaşayırlar. Bütün bunlar da muxtar respublikaya gələn turistlərin ən çox diqqət yetirdiyi məqamlardandır. Bu gün Naxçıvan qədim tarixi, abidələri, zəngin mədəni irsi, gözəl havası və təbiəti ilə yanaşı, həm də sabitliyi və inkişafı ilə turistlərin diqqətini cəlb edir. Hər il yüz minlərlə insan Naxçıvana səfər edir. Bu gün muxtar respublika sakinləri kimi, bura üz tutan qonaqlar da Naxçıvanın blokadada olduğuna inana bilmirlər. “Necə ola bilər ki, düşmən tərəfindən mühasirədə olan bir diyar bu qədər inkişaf etsin?” – deyə heyrətlərini gizlədə bilmirlər. Bəli, bu inanılmazdır, ancaq həqiqətdir. Bu həqiqət ulu öndərimizin siyasi xəttinə sədaqətin bəhrəsidir.

Onu da demək lazımdır ki, ölkəmiz öz azadlığına qovuşduğu dövrdə Naxçıvan təkcə silah döyüşündə deyil, informasiya döyüşündə də qələbə qazanmaq üçün əlindən gələni etsə də, resurslar az, imkanlar məhdud idi. Ancaq son illər bütün bu məhdudiyyətlər aradan qaldırılmışdır. Bu gün Naxçıvan informasiya blokadasını yararaq bütün dünyaya açılıb. Naxçıvanda söz, fikir və mətbuat azadlığı təmin olunub. Ən ucqar dağ kəndinin sakinləri də sürətli internetdən, dördüncü nəsil mobil rabitədən istifadə edirlər. Bütün yaşayış məntəqələrinə fiber-optik xətt çəkilib. Teleradiolar və qəzetlər üçün müasir maddi-texniki baza, jurnalistlər üçün isə sərbəst yaradıcılıq mühiti yaradılıb.

Naxçıvan Muxtar Respublikasının müasir siması Avropa mədəniyyətinin qabaqcıl elementlərini ehtiva edir. Muxtar respublikamızın ötən günlərini yada salanda gözlərimiz önünə asfaltı parça-parça olmuş palçıqlı küçələr, yöndəmsiz, plansız tikililər gəlir. Hələ baxımsız qalmış tarixi abidələrimizi demirik. İndi Naxçıvan şəhəri dünyanın ən gözəl, ən baxımlı şəhərləri sırasındadır. İslam mədəniyyətinin paytaxtıdır. Bu gün Naxçıvan tarixə ayna tutur, tarixi işıqlandırır. Bu gün Naxçıvan tarixinə Əlincə əzəmətindən, Gəmiqaya yüksəkliyindən, Əshabi-Kəhf müqəddəsliyindən nəzər salınır, öyrənilir, tədqiq olunur, yaşadılır. Naxçıvanın qədimliyinin, əzəmətinin daş nümunəsi olan, son illərdə bərpa edilərək ikinci həyat verilən tarixi abidələr muxtar respublikanın simvoluna, bəzəyinə, sakinlərin isə qürur mənbəyinə çevrilib. Çünki yaşadılan təkcə abidələr deyil, qan yaddaşımız, daşlaşan tariximiz, bu xalqın möhtəşəm keçmişidir.

Muxtar respublikada hər kəs öz sahəsində yaradıcı olmağa çalışır, ölkəmizin gələcəyi, dövlətimizin qüdrətlənməsi üçün səy göstərir. Dövlətimizin əhalinin məşğulluğunu təmin etmək üçün atdığı ardıcıl və qətiyyətli addımlar işsizi iş adamı, evsizi ev sahibi edib. Gənc ailələrin sosial müdafiəsi gücləndirilib, sahibkarlığa diqqət artırılıb, fiziki imkanları məhdud insanların bir sıra sosial layihələr çərçivəsində məşğulluğu təmin edilib. Naxçıvanda bütün imkanlar sakinlərin yaxşı yaşaması, rahat şəraitdə işləməsi və istirahət etməsi üçün səfərbər edilib.

Sahibkarlıq demişkən, bir məsələni də vurğulayaq ki, bu gün muxtar respublikada yeni sahibkarlar sinfi formalaşıb. Özəl bölmənin inkişafına hərtərəfli qayğı göstərilir. Ümumi daxili məhsul istehsalında bu sahənin payı artır, hər il yeni istehsal müəssisələri fəaliyyətə başlayır. Dövlət sahibkarın yanındadır. Güzəştli kreditlər verilir, şərait yaradılır, daxili bazar qorunur. Qalır təşəbbüs göstərmək və işləmək.

Naxçıvanda görülən işlərin hər qarışında əsl vətənpərvərlik bariz şəkildə hiss edilməkdə, duyulmaqdadır. Bu vətənpərvərlik kiçikdən böyüyə hər kəsin əməlində, işindədir. Torpağını əkən əkinçinin alın tərində, yaxşı təhsil alaraq peşə öyrənən gəncin arzularında, tarixi vərəqləyən alimin qələmində, yollar çəkən, binalar tikən mühəndisin işində, düşmənə sinəsini sipər edən əsgərin qələbə əzmində və ən nəhayət, tarixi yenidən yazan, kərpic-kərpic bərpa edən, qədim Naxçıvanı müasir inkişafa qovuşduran QURUCU RƏHBƏRİN əməlində, işindədir vətənpərvərlik.

Keçmişdə baş verənlərə görə peşmançılıq keçirməyə dəyməz. Çünki onu dəyişdirmək mümkün deyil. Lakin keçmişdə baş verənləri təhlil edib, nəticə çıxarmaq lazımdır. Ötənlərdən bu günə böyük bir inkişaf yolu olan bu diyarda görülən işlər, gələcəyə hesablanan xeyirxah əməllər, Naxçıvanı bütün dünyaya inkişaf etmiş bir diyar kimi tanıtmaq istiqamətindəki fəaliyyət ətraflı təhlil olunur, öyrənilir, nümunə götürülür.

Belinski deyirdi ki, *öz vətənini sevmək – bəşəriyyətin ideallarının həyata keçirilməsini ürəkdən arzu etmək və buna kömək etmək deməkdir.* Naxçıvanda son illər görülən işlər də bir daha sübut etdi ki, atılan hər bir addım, görülən hər bir işin arxasında ümumbəşəri ideallar, ümumbəşəri addımlar var. Bütün bu işlərə gələcəyin verəcəyi qiymət isə daha yüksək olacaqdır. Çünki tarixi yaşadanları tarix də yaşadacaqdır...

**“Şərq qapısı”**





***Akademik Çingiz Qacarın yeni işıq üzü görmüş “Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri” kitabı kulturoloji yönümlü nəşrdir. Onun səhifələrində Naxçıvan diyarının təbiəti, tarixi, arxeologiyası, memarlığı, xalq sənəti və peşəkar incəsənəti, adət-ənənələri və bayramları, mətbəxi, numizmatikası və heraldikası ardıcıl surətdə və böyük məhəbbətlə təsvir edilmişdir.***

# “Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri” kitabı Nuh torpağının uzaq keçmişinə işıq salır




Əlbəttə, burada Naxçıvanın görkəmli yetirmələrindən – dövlət xadimlərindən və hərbçilərdən, filosof, dilçi, tarixçi və ədəbiyyatçı alimlərindən, yazıçı və rəssamlarından da söz açılıb. Bütün bunlar birlikdə Naxçıvanın çoxcəhətli və vahid formalarda təzahür edən mədəniyyətidir, çoxəsrlik davamlı ənənələrdir və bir çox nəsillərin topladığı böyük sosial təcrübədir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim və müasir Naxçıvanın çoxəsrlik tarixi inkişaf yolu akademik Çingiz Qacarın təqdim etdiyi “Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri” kitabının ana xəttini təşkil edir. Bir çox əsaslı dəlillərə istinad edərək və çox haqlı olaraq müəllif Naxçıvanın tarixini Dünya tufanı və Nuh Peyğəmbərin əfsanəvi səfəri ilə əlaqəli şəkildə oxuculara çatdırıb. Kitabda Naxçıvanın çoxəsrlik tarixinin bütün mərhələləri, eyni zamanda müasir dövrdəki inkişafı öz əksini tapıb.

Naxçıvan mədəniyyəti bu diyarın mənəvi sərvətlərinin ayrılmaz hissəsidir. Rəngarəng və sərt təbiəti bu yerlərin əhalisinin xarakterini də müəyyən edib. Məğrur dağ landşaftı naxçıvanlıların mentalitetində, memarlıq və incəsənət formalarında öz izini qoyub. Müəllif mövzunu dağ mənzərələrinin memarlıq abidələri ilə səsləşən cizgilərindən tutmuş Naxçıvan tarixi və mədəniyyətinin görkəmli xadimlərinin portret cizgilərinə qədər geniş miqyasda dəyişməklə oxucunu tədricən bu aləmə çəkib aparıb.

Kitabı vərəqlədikcə Qapıcıq dağının qayalı zirvəsi, Haçadağ, Əlincə, İlandağ və başqa zirvələrin əzəmətli görünüşü gözlərimiz önündən keçir. Qədim arxeoloji abidələr içərisində 500 hektar ərazini tutan və erkən təbəqələri eramızdan əvvəl IV minilliyə aid edilən şəhər yeri – Xaraba Gilan xüsusi qeyd olunub. Qədim Naxçıvanın müdafiə qurğuları – Oğlanqala, Çalxanqala, Vayxır-Gavurqala, Naxçıvanqala (Köhnəqala) və əlbəttə ki, “Kitabi-Dədə Qorqud”da tərənnüm olunan əfsanəvi, alınmaz qala olan Əlincəqala geniş təqdim olunub.

Ümumiyyətlə, Naxçıvan memarlıq məktəbi mövzusu Çingiz Qacarın kitabında mərkəzi yerlərdən birini tutur. Bu məktəb özünün ən yüksək çiçəklənmə dövrünə XII əsrin dahi memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin zamanında qədəm qoyub. Bu gün həmin məktəb orta əsrlər dövrü bütün Azərbaycan memarlıq məktəbləri içərisində ən yaxşı tədqiq olunan məktəbdir. Əminliklə demək olar ki, bizim memarlıq elmimizdə ayrıca istiqamət olan Naxçıvanşünaslıq təşəkkül tapıb. Əbdülvahab Salamzadə, Kamil Məmmədzadə, Vilayət Kərimov, Fazil Məmmədov, Roza Salayeva və başqalarının tədqiqatları Naxçıvan memarlıq məktəbinin formalaşması və inkişafının müxtəlif aspektlərinə həsr edilib. Naxçıvan memarlığının ən yüksək nailiyyətlərini təsvir edərkən Çingiz Qacar bu tədqiqatlara istinad edib.

Möminə xatın (1186), Yusif Küseyir oğlu (1182) kimi əzəmətli qüllələvarı məqbərələr, Əcəmi sənətinin təsiri altında inşa edilmiş Gülüstan məqbərəsi Naxçıvan memarlıq məktəbinin kompozisiya, plastik və tikinti üsullarını özündə birləşdirib. Bu tikililər həcmin monumentallığının detalların incə işlənməsi ilə məharətlə əlaqələndirilməsi baxımından fərqlənir. Möminə xatın məqbərəsinin memarlıq obrazı “zərif monumentallıq” kimi xarakterizə edilir.

*Ardı 3-cü səhifədə*

Atabəylər dövlətinin baş memarı olmuş dahi Əcəminin sənətkarlığı təkcə Azərbaycan memarlığının sonrakı inkişafına deyil, həm də bir sıra qonşu ölkələrin memarlıq təfəkkürünə təsir göstərib. Bu təsirin miqyasını təsəvvür etmək üçün Gülüstan, Marağa, Qarabağlar, Bərdə, Həmədan, Səlmas, Urmiya, Səmərqənd abidələrini xatırlamaq kifayət edər. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, Əcəmi dövrünün Naxçıvan sənətkarları Yaxın Şərq ölkələrinin memarları arasında ilk cərgələrdə qərarlaşıblar.

"Naxçıvan memarlıq məktəbi" anlayışının özü təkcə Əcəminin yaratdığı şedevrlərlə bitmir. Əsrlərboyu təşəkkül tapmış bu ənənə həm yaşayış yerlərinin şəhərsalma strukturu xüsusiyyətlərini, həm müxtəlif tikililərin əhatəli tipologiyasını, həm onların dekorunun özünəməxsusluğunu, həm də inşa edilməsinin mühəndis üsul və vasitələrinin bütöv bir qismini özündə ehtiva edir. Çingiz Qacar Naxçıvan memarlıq məktəbinin məhz bütün bu sadalanan tərkib hissələrini sistemli nəzərdən keçirib. Burada Naxçıvan və Ordubad şəhərlərinin məhəllələrinin strukturu barədə, yaşayış evləri, məscidlər, mədrəsələr, hamamlar, zorxanalar, həmçinin də əsasını unikal sutoplayan qurğular – kəhrizlər təşkil edən su təchizatı sistemi barədə ən maraqlı və müxtəlif məlumatlar yer alıb.

Azərbaycanın bir çox digər bölgələrində olduğu kimi, Naxçıvanda da təkcə memarlıq yox, həm də başqa yerli bədii məktəblər təşəkkül tapıb. Kitabda bu baxımdan Naxçıvan xalçaçılıq məktəbindən, bədii metal emalından, dulusçuluq məmulatlarından, həmçinin diyarın musiqi mədəniyyətindən də söhbət gedir. Azərbaycan xalça sənəti, o cümlədən Naxçıvan qrupu xalçaları yaxşı tədqiq olunub. Lakin Çingiz Qacarın irəli sürdüyü bəzi müddəalar prinsipial yeniliyi ilə seçilir.

Akademik xalçaların toxunulması vərdişlərinin ötürülməsi prosesinin olduqca dəqiq təsvir edilməsinə, yəni bədii məktəbin – indiki halda Naxçıvan məktəbinin formalaşmasının daxili mexanizmlərinin müəyyənləşdirilməsinə müyəssər olub. Hər bir xalça kompozisiyasının "uzaq əcdadlar və nəsil şəcərəsinin tarixi haqqında müəyyən məlumat" daşımasına əsaslanaraq müəllif xalça toxucularının qadın kollektivini ənənəvi sənətin akademiyası qismində nəzərdən keçirib. "Gənc xalçaçı qızlar, adətən, corab toxumaqdan başlayır və bu akademiyanın diplomu olan, adaxlısına hədiyyə edilən xalçanın toxunulması ilə işi başa çatdırırdılar".

Kitabın Naxçıvan dekorativ-tətbiqi sənətlərinə həsr edilmiş bölmələri maddi mədəniyyətin zəngin irsi, yüksək sənətkarlıqla işlənmiş metal və saxsı əşyalar, həmçinin xatirə daş plastikası barədə məlumatları əks etdirir. "Saxsı və metal qabların, gözəl xalçaların, bədii tikmələrin və ağac üzərində oyma sənəti nümunələrinin hər bir evdə, hətta ən kasıb evdə mövcudluğu xalqın ümumi mədəniyyətini müəyyən edirdi" – deyə müəllif vurğulayır.

Çingiz müəllim Naxçıvan tarixinin əsas dövrlərini rəngkarlıq tablosunda olduğu kimi iri yaxmalarla çevrələyib. Müəllif orta əsrlər dövrünün əsas sosial-siyasi hadisələrindən tutmuş 1827-ci ildə Naxçıvanı rus qoşunlarının işğal etməsinədək olan dövrü, demək olar ki, bütün əsas cizgiləri ilə təsvir edib. Kitabın üstün cəhətlərindən biri də budur ki, alim fundamental tədqiqatların nəticələrini ümumiləşdirərək Atabəylər dövləti tarixini aydın və oxunaqlı dillə şərh edib. Diyarın XII-XIII əsrin əvvəlləri dövrünün tarixi parlaq, canlı səhnələrlə göz önündə canlanır. Bu coşqun hadisələrin əsas fiqurları Şəmsəddin Eldəgiz və onun nəslinin davamçılarıdır. Eldəgizin dövründə Əcəminin memarlıq şedevrləri yaradılıb, Möminə xatın məqbərəsinin tikintisi isə onun oğlu Cahan Pəhləvanın zamanında başa çatdırılıb.

Kitabda Naxçıvan xanlığının 1747-1839-cu illər tarixi də maraqlı şərh olunub. Müəllif tarixçi səriştəsi ilə Naxçıvan xanlığının zəngin ictimai-siyasi və mədəni mühitini təsvir edib.

Akademik Çingiz Qacar hürufilik dini-fəlsəfi təriqətinin, Naxçıvan memarlıq məktəbinin, "Əncüməni-şüəra" ədəbi və digər musiqi məclislərinin, Ordubad şəbəkə sənətinin bədii təcrübəsinin, zorxanalarda cəmləşmiş Naxçıvan idman ənənəsinin tarixini şərh edib. O, gəlinin seçilməsi, elçilik, toy mərasimi adətlərindən söz açaraq nikah və ailə ənənələrinə xüsusi diqqət yetirib. Bu möhtəşəm simfoniyada ən uca və major akkord kimi dini, təqvim, xalq bayramları mövzusu səslənib. Həm də müəllif Naxçıvan diyarında bayram şənliklərinin spesifikliyini, misal üçün, Novruz bayramının Şahtaxtı kəndində, yaxud Ordubad şəhərində fərqli xüsusiyyətlərini də qeyd edib.

Həqiqətən, kitabın süjet xəttinin inkişafı boyunca onun nəqledicilik miqyası da dəyişilir. Müəllifin miqyas şkalasını aşağıdakı dörd söz ilə ifadə etmək mümkündür: təbiət, mədəniyyət, cəmiyyət, şəxsiyyət. Kino dili ilə desək, kitabda ümumidən böyük plana keçid baş verir. Kulminasiya kimi Naxçıvanın Azərbaycan tarixinə, dövlətçiliyin və hərbi işin, mədəniyyətin, elmin, fəlsəfənin, ədəbiyyatın, incəsənətin inkişafına əvəzsiz töhfələr vermiş görkəmli şəxsiyyətlərinin portret cizgiləri göz önündə canlanır. İlk öncə orta əsrlər dövrünün Fəzlullah Nəimi, Nəcməddin Naxçıvani, Hinduşah İbn Səncər Naxçıvani və başqa görkəmli simalarının qalereyası sıralanıb. Müəllif izah edir ki, onların bir çoxu "Naxçıvanlı" mənasını verən "ən-Nəşəvi" nisbəsi ilə tanınır.

XIX-XX əsrlərin görkəmli şəxsiyyətlərinin böyük bir qismi kitabın foto bölməsində təqdim olunub. Bunlar Kəngərlilər, şahtaxtılar, naxçıvanlılar nəslinin nümayəndələridir, ümummilli lider Heydər Əliyevin, akademik Yusif Məmmədəliyevin ailə üzvləridir. Rəssamlar Bəhruz Kəngərli və İbrahim Səfinin, yazıçı-dramaturqlar Hüseyn Cavid və Cəlil Məmmədquluzadənin bioqrafik məlumatları ayrıca təqdim olunub. Kitabın özü zəmanəmizin dahi dövlət və siyasət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevə – Azərbaycanı, o cümlədən Naxçıvanı dünyada şöhrətləndirən insana həsr edilib.

Alim kitabının məzmununa işarə olaraq əsas ada "Əsatirlər, əfsanələr, faktlar" başlıqaltısı seçib. Kitabın bütün nəqledici məzmunu boyunca Naxçıvanın sivilizasiyanın ən qədim ocaqlarından biri olması fikri qırmızı xətlə keçib. Öz sübut bazasını müəllif ümumdünya daşqınından sonra həyatın məhz Naxçıvanda başlanması qənaəti üzərində qurub. Mifoloji, dini, tarixi, arxeoloji, etnoqrafik və digər mənbələrin təhlilinin daxil olduğu kompleks kulturoloji tədqiqat bu mövzudan qaynaqlanıb. Diyarın adının etimologiyasını müəllif birbaşa Nuh Peyğəmbərin adı ilə bağlayıb. Toponimin "Nuhçuvan" formasında səslənən ilkin adı bilavasitə "Nuhun torpağı" kimi izah olunub.

Dünyanın başqa heç bir yerində peyğəmbərin adı ilə bağlı toponim və artefaktların bu qədər çox konsentrasiyası yoxdur. Bunlar: həm şəhərin cənub hissəsində, qədim Köhnəqala ərazisində yerləşən, sonralar üstündə məqbərə tikilən və bizim günlərimizdə bərpa olunan Nuh Peyğəmbərin qəbri; həm rəvayətə görə, daşqından sonra Nuhun gəmisinin yan aldığı Gəmiqaya dağındakı gəmi təsvir olunan petroqliflər (e.ə. IV-I minilliklər); həm də yaxınlıqda yerləşən Nuhdaban, Nuhgədik, Nəhəcir, Nehrəm yaşayış məskənləri və bir çox başqa ünvanlardır.

Azərbaycan MEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəylinin kitaba yazdığı "Ön söz"ün əsas qayəsi Naxçıvan şəhərinin 5 minillik tarixinin təsdiqidir: "Naxçıvan ən qədim türk-oğuz diyarıdır. Azərbaycan xalqının böyük şifahi xalq yaradıcılığı nümunəsi olan "Kitabi-Dədə Qorqud" eposunda Naxçıvanda bu günədək mövcud olan 50-dən artıq toponim qeydə alınmışdır". Daha sonra qeyd edilir ki, Çingiz Qacarın əsəri qədim və müasir Naxçıvanın özünəməxsus elmi-sənədli pasportuna çevrilib. Bu fundamental kitab çağdaş oxucunu nağıllar yurdu, gözəl əfsanələr və əsatirlərə bələnmiş Naxçıvana cəlbedici səyahətə aparır.

Akademik Çingiz Qacarın "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" kitabı Azərbaycan elminin mühüm nailiyyətlərindən biri sayılmağa layiqdir. Müəllifin geniş elmi dünyagörüşü, tədqiqatçılıq məharəti kitabın yüksək elmi-kulturoloji səviyyədə hazırlanmasını təmin edib. Bu kitab, geniş mənada, Azərbaycanın tarixinə və mədəniyyətinə müəllifin sanballı töhfəsidir.

**Ərtegin SALAMZADƏ**
*AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü*
*"Xalq qəzeti", 15 dekabr 2016-cı il*

## "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" kitabının təqdimatı olub

***Dekabrın 15-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami adına Ədəbiyyat İnstitutunda akademik Çingiz Qacarın rus dilində çapdan çıxmış "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" kitabının təqdimatı olub.***



Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli kitabın məziyyətlərindən danışıb, Naxçıvanın tarixi ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında bu nəşrin əhəmiyyətini qeyd edib. Akademik bildirib ki, kitab bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qayğısı ilə Naxçıvanda fəaliyyət göstərən "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək səviyyədə çap olunub. Kitabda Naxçıvanın qədim dövrdən bu günədək keçdiyi tarixi inkişaf yolu, Azərbaycan və dünya tarixində tutduğu şərəfli yeri, mövqeyi arxiv materialları və nadir sənədlərlə, mətn və fotoşəkillərlə müşayiət olunur. Kitab Naxçıvan haqqında elmi yolla ümumiləşdirilmiş təsəvvür yaratmağa imkan verir. Burada bu qədim diyarın tarixinin inkişaf mərhələləri, həmin mərhələlərdə baş verən hadisələrin dəqiq təyinatı, onları təsdiqləyən memarlıq abidələri və sənədlər əksini tapıb.

İ.Həbibbəyli vurğulayıb ki, çoxillik gərgin araşdırmaların və böyük zəhmətin bəhrəsi olan kitab zəngin və dəqiq materiallarla diqqəti cəlb edir və indiyədək Naxçıvanın tədqiqi sahəsində əldə edilmiş elmi nailiyyətlərin tanıdılması, təbliği baxımından çox önəmlidir. Kitabda Naxçıvanın tarixi inkişaf yolu, folkloru, etnoqrafiyası, toponimləri, mədəniyyəti, təbiət və memarlıq abidələri, coğrafiyası, teatr və ədəbi mühiti, əsilzadələrin və bu qədim diyarın tarixi, müasir Naxçıvan barədə çox dəqiq məlumat, elmi fikir və fotoşəkillər verilir. "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" kitabında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə, Azərbaycan Respublikası Prezidentinin apardığı siyasətə işıq salınıb. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Naxçıvanın qədim tarixinin yenidən bərpa edilməsi, onun müasir inkişafının təmin olunması sahəsindəki özünəməxsus böyük xidmətləri nəşrdə obyektiv elmi ifadəsini tapıb.

Qeyd edilib ki, nəşr Azərbaycan elmində Naxçıvan haqqında yazılmış kitablar silsiləsinin məntiqi davamı və bu istiqamətdə yeni bir mərhələnin başlanğıcıdır. Yüksək poliqrafik səviyyədə nəfis tərtibatda çap olunan kitab azərbaycanşünaslığa və elmimizə çox dəyərli töhfədir. Azərbaycanın elmi ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanan kitab respublikanın bir çox qurumlarına, kitabxanalarına və ali məktəblərinə təqdim olunub.

Akademik İ.Həbibbəyli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun kitabla bağlı akademik Çingiz Qacara xüsusi məktub göndərdiyini bildirib. Məktubda qeyd olunur ki, qiymətli arxiv materialları və tarixi fotoşəkillərlə zəngin "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" kitabı doğma Azərbaycanımızın qədim diyarının tarixinin, mədəniyyətinin və adət-ənənələrinin oxuculara çatdırılması sahəsində yüksək qiymətə layiqdir. Bu təşəbbüsə və Naxçıvanla bağlı nadir arxiv materiallarını tapıb kitab halına saldığına görə müəllifə dərin təşəkkür ifadə olunub.

İ.Həbibbəyli akademik Ç.Qacarın Azərbaycanda fizika üzrə tanınmış alim olduğunu söyləyib, onun bu sahədəki xidmətlərini xüsusi qeyd edib. Alimin elmi fəaliyyətindən söz açan AMEA-nın vitse-prezidenti bildirib ki, Ç.Qacarın Azərbaycan elminə, mədəniyyətinə, tarixinə dair qiymətli əsərləri cəmiyyətimizdə, elmi ictimaiyyətdə yüksək rəy yaradıb, çox böyük maraqla qarşılanıb.

Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov kitabın Azərbaycan elmi ictimaiyyəti üçün böyük əhəmiyyət daşıdığını söyləyib. Qeyd edilib ki, son illər Naxçıvanda elmin inkişafı sahəsində müxtəlif tədbirlər həyata keçirilib, alim və tədqiqatçılar üçün geniş fəaliyyət istiqamətləri müəyyənləşdirilib, bu qədim diyarın tarixi hərtərəfli öyrənilib. Naxçıvan Muxtar Respublikasının tarixinin, etnoqrafiyasının, arxeologiyasının, mədəni mühitinin, folklorunun, flora və faunasının, təbii ehtiyatlarının araşdırılması sahəsində mühüm elmi nəticələr qazanılıb.

Qeyd edilib ki, akademik Ç.Qacarın qiymətli arxiv materialları və tarixi fotoşəkillərlə zəngin "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" kitabı da Naxçıvanın tarixinin, mədəniyyətinin və adət-ənənələrinin tanıdılması, oxuculara çatdırılması sahəsində dəyərli mənbədir. Kitab tarixi, etnoqrafik, mədəniyyət sahəsində geniş məlumatları özündə cəmləşdirir, nəşrdə təqdim olunan fotoşəkillərin hər biri özündə bir tarix yaradır. Müəllif qeyd edir ki, bu nəşr elmi-tədqiqat xarakterli deyil, təbliğat və tanıtma məqsədlidir. Əslində isə böyük zəhmətin məhsulu olan bu kitab həm də ciddi elmi-tədqiqat xarakteri daşıyır.

Tədbirdə AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Ərtegin Salamzadənin "Nuh torpağına səyahət" mövzusunda məruzəsi dinlənilib. Bildirilib ki, kitabın janrı kulturoloji yönümlüdür. Nəşrdə Naxçıvanın təbiəti, tarixi, arxeologiyası, memarlığı, xalq və peşəkar incəsənəti, adət-ənənələri və bayramları, mətbəxi, numizmatikası ardıcıl təsvir edilir. Kitabın Naxçıvan dekorativ-tətbiqi sənətinə həsr edilmiş bölmələri maddi mədəniyyətin zəngin irsi, yüksək sənətkarlıqla işlənmiş metal və saxsı məmulatlar, həmçinin xatirə daş plastikası barədə məlumatları əks etdirir. Nəşrdə Naxçıvanın dövlət və hərbi xadimlərindən, filosof, alim, yazıçı və rəssamlarından da söz açılır.

AMEA-nın müxbir üzvü Muxtar İmanov, akademik Cavad Abdinov, "Xalq qəzeti"nin əməkdaşı Tahir Aydınoğlu və digər çıxış edənlər kitab barədə fikirlərini bölüşüblər. Bildirilib ki, akademik Ç.Qacar ölkəmizdə həm dəqiq, həm də humanitar elmlərin inkişafına mühüm töhfələr verib. Alimin "Naxçıvan. Dünyanın ən qədim şəhərlərindən biri" kitabı tarix, etnoqrafiya və mədəniyyət sahəsində məlumatları özündə cəmləşdirən dəyərli mənbədir. Nəşrin elmi redaktoru və "Ön söz"ün müəllifi akademik İsa Həbibbəylidir. Kitabda müxtəlif alimlərin, o cümlədən naxçıvanlı elm adamlarının əsərlərindən məlumatlar yer alıb.

**AZƏRTAC**

## "Mənim yaradıcılığım" adlı rəsm sərgisinin qalibləri mükafatlandırılıb



***Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikanın uşaq incəsənət və bədii sənətkarlıq məktəblərində rəsm ixtisası üzrə təhsil alan və ustad dərslərində iştirak etmiş şagirdlərin çəkdikləri rəsm əsərlərindən ibarət "Mənim yaradıcılığım" adlı sərgi təşkil olunub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Təhsil, Mədəniyyət və Turizm nazirliklərinin və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, bu gün ölkəmizdə, o cümlədən muxtar respublikamızda həyata keçirilən dövlət uşaq siyasəti uğurla davam etdirilir. Uşaqların istedadlarının üzə çıxarılması, mənəvi inkişafı, asudə vaxtının düzgün təşkili, cəmiyyətin mədəni həyatındakı iştirakının təmin etmək bu siyasətin tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin tədbirlər planına əsasən təşkil olunan "Mənim yaradıcılığım" adlı uşaqların rəsm sərgisi bu istiqamətdə həyata keçirilən tədbirlərdən biridir.

"Xüsusi istedad tələb edən bir sənət kimi rəssamlığa uşaqların da böyük maraq göstərmələri çox sevindirici haldır", – deyən Rəssamlar Birliyinin sədri vurğulayıb ki, onların sənət bacarıqlarının düzgün formalaşdırılması üçün muxtar respublikada hərtərəfli şərait yaradılıb.

Ülviyyə Həmzəyeva deyib ki, muxtar respublikada 3 ildir, rəsm sənətinə maraq göstərən şagirdlər üçün ustad dərsləri keçilir. Bu sərgi ustad dərslərində iştirak edən şagirdlərin hesabatıdır. Sərgidə 136 uşağın 231 rəsm əsəri və digər janrlarda hazırladıqları 25 müxtəlif əl işi, həmçinin paytaxt Bakı şəhərindən göndərilmiş 6 rəsm əsəri nümayiş etdirilir.

Sonra Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev, muxtar respublikanın Mədəniyyət və Turizm Nazirliyinin aparat rəhbəri Gülbuta Babayeva çıxış ediblər.

Çıxışlarda bildirilib ki, bu gün Naxçıvan Muxtar Respublikasında uşaqlar milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, təhsil, idman, mədəniyyət, incəsənət və digər sahələrdə uğurlar əldə edirlər. Onlar rəssamlıq sənətinə də böyük maraq göstərirlər. Uşaqların gələcəkdə yaxşı rəssam kimi formalaşmasında belə tədbirlərin böyük rolu var.

Çıxış edənlər sərgidə rəsm əsərləri nümayiş olunan uşaqlara uğurlar arzulayıblar.

Ustad dərslərinin keçilməsində əməyi olan rəssamlara və rəsm sərgisində fərqlənən uşaqlara, həmçinin Türkiyə Respublikasında "Beynəlxalq rəssamlar görüşü" adlı festivalda "Yeni ildə dostuma sülh arzulayıram" adlı uşaq rəsm müsabiqəsində ilk üç yeri tutan 5 naxçıvanlı gənc rəsm həvəskarına diplomlar təqdim olunub.

Sərgiyə baxışdan sonra uşaqlar pastel boyalarla kağız üzərində öz bacarıqlarını nümayiş etdiriblər.

Burada Zeynəb Qurbanovanın, Nuray Gözəlovanın, Ayxan Qasımovun, Zöhrə Seyidovanın, Kənan Bədəlovun və digər balaca rəsm həvəskarlarının rəsmləri diqqəti daha çox cəlb edib.

Sərgi salonunda təbiət mənzərələrindən tutmuş cizgi filmlərinin qəhrəmanları da daxil olmaqla bir sıra maraqlı rəsmlər və əl işləri yer alıb.

✍ **Rauf ƏLİYEV**

## Naxçıvanda Məhəmməd Peyğəmbərin mövludu günü qeyd olunub

***İnsanları humanizm və bəşəri ideyalar ətrafında birləşdirən İslam dini tarixən xalqımızın dünyagörüşünün formalaşmasında və dini-mənəvi dəyərlərimizin inkişafında müstəsna rol oynayıb, ölkəmizdə islami dəyərlərin qorunub yaşadılmasına xüsusi önəm verilib.***



Ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət-din münasibətləri bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, mütərəqqi dini dəyərlər və ənənələr həmişə uca tutulur. Naxçıvan Muxtar Respublikasında da islami dəyərlər qorunub yaşadılır, yeni məscid binaları tikilərək istifadəyə verilir, dini mərasimlər keçirilir. İslamın digər mərasimləri kimi, Məhəmməd Peyğəmbərin mövludu günü də hər il muxtar respublikada qeyd olunur. Hicri təqvimi ilə Rəbbiul-əvvəl ayının 12-17-nə təsadüf edən Mövlud gecəsi həzrəti Məhəmməd Peyğəmbərin doğum günüdür. İslam dininin təşəkkül tapmasında və bütün dünyaya yayılmasında böyük xidmətləri olan, daim insanları mənəvi saflığa və yüksək əxlaqi dəyərlərə səsləyən Məhəmməd Peyğəmbərin mövludu günü İslamın əziz bayramı kimi bütün müsəlmanlar tərəfindən qeyd edilir. Təsadüfi deyil ki, xalqımızın ümummilli lideri Heydər Əliyev bu bayramın böyüklüyünə diqqət çəkərək deyib: ***"İslam dininin banisi həzrəti Məhəmməd Peyğəmbərin mövludu günü bizim böyük bayramımızdır".***

Dekabrın 15-də Naxçıvan şəhərindəki "Came" məscidində həzrəti Məhəmməd Peyğəmbərin mövludu günü qeyd olunub.

Tədbirdə "Qurani-Kərim"dən ayələr oxunub, ölkəmizə, xalqımıza əmin-amanlıq, inkişaf və tərəqqi arzulanıb.

Qeyd edək ki, muxtar respublikanın rayonlarında da Məhəmməd Peyğəmbərin mövludu günü münasibətilə tədbirlər keçirilib.

✍ **Səbuhi HƏSƏNOV**

## Naxçıvan Dövlət Universitetində fakültələrarası bilik yarışması keçirilib

Yarışmadan əvvəl çıxış edən universitetin elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev və tərbiyə işləri üzrə prorektoru, dosent Şamxal Məmmədov bildiriblər ki, viktorinanın keçirilməsində məqsəd tələbələrin asudə vaxtlarının səmərəli təşkilindən, onların dünyagörüşünün zənginləşdirilməsindən, intellektinin artırılmasından ibarətdir. Prorektorlar tələbələrə viktorinanın gedişində təqdim olunan sualları diqqətlə cavablandırmağı, verilən vaxtı düzgün dəyərləndirməyi tövsiyə ediblər.

İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə keçirilən viktorina üç mərhələdən ibarət olub. Tələbələrə, ümumilikdə, 35 sual təqdim edilib. Birinci mərhələdə tələbələrə Naxçıvan, Azərbaycan, Azərbaycan filmləri və musiqiləri, ümumi dünyagörüşü kateqoriyalarından ibarət olan, ikinci mərhələdə informatika və məntiqə, üçüncü – yəni final mərhələsində isə yalnız məntiqə aid daha mürəkkəb suallar təqdim olunub. Birinci və ikinci mərhələlərdə hər sualı cavablandırmaq üçün 1 dəqiqə, sonuncu mərhələdə isə 90 saniyə vaxt verilib. Bilik yarışmasında universitetin 10 fakültəsinin komandası iştirak edib.

Viktorinanın nəticələrinə görə universitetin İqtisad fakültəsi I, Memarlıq və mühəndislik fakültəsi II, Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi isə III yerə layiq görülüb.

**Nərmin CABBAROVA**

***Naxçıvan şəhərindəki Gənclər Mərkəzində gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mirəsgər Seyidova həsr olunmuş sənədli film nümayiş etdirilib.***

## Gənclər vətənpərvərlik mövzusunda çəkilmiş filmə baxıblar

Filmin nümayişindən əvvəl bildirilib ki, Mirəsgər Seyidov 1970-ci ildə Babək rayonunun Qaraxanbəyli kəndində doğulub. 1987-ci ildə 39 saylı Naxçıvan şəhər orta məktəbini bitirdikdən sonra bir müddət təsərrüfatda çalışıb. 1988-ci ildə ordu sıralarına hərbi xidmətə çağırılıb. 1990-cı ildə hərbi xidmətini başa vurub, öz doğma yurdu Naxçıvana qayıdıb. Bu, o dövr idi ki, "böyük Ermənistan" yaratmaq xülyası ilə erməni yaraqlıları Naxçıvanın kəndlərinə aramsız hücumlar edir, bu torpaqları Azərbaycandan qoparmağa çalışırdılar. O çətin günlərdə Vətənin igid oğulları öz canları, qanları bahasına torpaqlarımızı düşməndən qoruyurdular. Mirəsgər Seyidov da könüllü olaraq Babək rayonunun Yuxarı Buzqov kənd özünümüdafiə batalyonunun tərkibində vuruşurdu. Kəndin müdafiəsində igidliyi və cəsurluğu ilə fərqlənirdi. O, bir neçə dəfə, ən çətin məqamlarda döyüşçü dostlarının köməyinə çatmışdı. Onun son döyüşü isə 1992-ci il iyun ayının 14-də oldu. Mirəsgər bu dəfə yoldaşlarını xilas edərkən ağır yaralandı və şəhidlik zirvəsinə ucaldı.



Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 dekabr tarixli Fərmanı ilə Seyidov Mirəsgər Mirabdulla oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Sonra film nümayiş etdirilib.

## Ümumtəhsil məktəblərində tuberkulin diaqnostikası davam etdirilir

***Muxtar respublika ərazisində uşaq və yeniyetmələr arasında başlanğıc və məhdud formalı vərəmin erkən aşkar olunub vaxtında müayinə və müalicəyə cəlbi üçün I-XI sinif şagirdləri arasında kütləvi tuberkulin diaqnostikası – mantu sınağı davam etdirilir. Bunun üçün əvvəlcədən zəruri təşkilati tədbirlər görülüb.***

Muxtar respublikanın tibb müəssisələrində çalışan həkim-pediatr və vaksinatorlar üçün seminar-məşğələ keçirilib. Tədbirin normal təşkili və başa çatdırılması üçün rayon mərkəzi xəstəxanaları tərəfindən əvvəlcədən cədvəllər tərtib olunaraq məktəblərə göndərilib. Orta məktəblərdə çalışan tibb işçilərinə lazımi təlimatlar verilib, söhbətlər aparılıb. Eyni zamanda şəhər və rayon gigiyena və epidemiologiya mərkəzləri tərəfindən məsul şəxslərin iştirakı ilə seminar keçirilib, rayon mərkəzi xəstəxanaları, eləcə də gigiyena və epidemiologiya mərkəzləri tərəfindən xidmət ərazilərində həmin sınağa cəlb ediləcək uşaqların siyahıları tərtib olunub. Ərazi prinsipi üzrə bir həkim və iki tibb işçisindən ibarət yaradılmış xüsusi briqadalar sınaq materialı ilə təchiz edilib.

Dekabrın əvvəllərindən başlanan tədbir artıq Naxçıvan şəhəri, Şahbuz və Sədərək rayonlarında yekunlaşdırılıb. Naxçıvan şəhərində 10 min 752 şagirddən 10 min 500, Şahbuz rayonunda 1510 şagirddən 1448, Sədərək rayonunda isə 630 şagirddən 614-ü sınağa cəlb edilib. Mantu sınağı digər rayonlarda mütəşəkkil şəkildə davam etdirilir. Belə ki, indiyədək 19 min 500 şagird tuberkulin diaqnostikasına cəlb olunub. Sınağın nəticələri 72 saat keçdikdən sonra qiymətləndirilir və bu haqda Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə, Ağciyər Xəstəlikləri Dispanserinə məlumat verilir. Nəticələr qiymətləndirilərkən şübhəli və müsbət reaksiyalı uşaqların Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserində dərin ftiziatr müayinəsinə, lazım gələrsə, müalicəyə cəlb olunmaları təşkil ediləcək.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçi-pediatrı İbrahim Ağayev bildirir ki, bu mühüm kampaniya uşaqlarımızın sağlamlığının təminatında olduqca mühüm əhəmiyyət kəsb edir. Hər bir valideyn bu barədə məlumatlı olmalı və bilməlidir ki, mantu sınağı peyvənd deyil. Bu sınağın əsas vəzifəsi insan orqanizmində vərəm infeksiyasının erkən aşkar edilməsidir. Mantu sınağı bir çox hallarda 1 yaşından 18 yaşına kimi olan yaş qrupu arasında keçirilir.

Mantu sınağı insan orqanizmi üçün tam təhlükəsiz sayılır. Əgər uşaqda sınağın nəticəsi ilk dəfə müsbət olubsa, infiltratın ölçüləri kəskin böyüyübsə, uşaq mütləq ftiziatr müayinəsinə göndərilməlidir. Sınağın nəticəsi şübhəli olduqda da uşaq ftiziatr müayinəsindən keçməlidir. Əgər infiltratın ölçüləri çox böyükdürsə (17 millimetrdən böyük), inyeksiyanın yeri irinləyibsə, uşaqda limfatik düyünlər şişibsə, bu halda uşağı həm ftiziatr, həm allerqoloq müayinə etməlidir. Uşaqların sağlamlığı naminə hər bir valideyn bu tədbirə müsbət yanaşmalı və tibb işçiləri ilə bərabər bu kampaniyanın uğurla başa çatmasına kömək etməlidir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## MMA qarışıq döyüş növü üzrə Naxçıvan şəhər birinciliyi başa çatıb

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində MMA qarışıq döyüş növü üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***

Birinciliyin açılış mərasimində çıxış edən şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev yarışın qaydaları haqqında idmançılara məlumat veriblər. İki gün davam edən yarışda 7 çəki dərəcəsində 70-ə yaxın idmançı mübarizə aparıb.

Gərgin mübarizə şəraitində keçən döyüşdə Fərid Məmmədov, Nizami Hüseynov, Elvin Tağıyev, Elçin Əsgərov, Cəmaləddin Tağıyev, Məhəmmədəli Bağırov, Nəcəfəli Nəcəfov müvafiq olaraq 52, 56, 61, 66, 70, 77 və 84 kiloqram çəki dərəcələrində qalib adına layiq görülüblər.

Qalib idmançılar təşkilatçıların diplom, medal və hədiyyələri ilə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 952